*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2024, № 1*
*Səhifə: 198-207*
*https://doi.org/10.59849/2663-4406.2024.1.198*

*ISSN: 2663-4406*
*E-ISSN: 2709-2699*

# Mirzə Ələkbər Sabir və "Molla Nəsrəddin" jurnalı

**Gülbəniz Babayeva**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: gulbeniz-babayeva@mail.ru

**Annotasiya.** Məqalədə XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, "Molla Nəsrəddin" ədəbi məktəbinin fəal üzvlərindən biri, böyük satirik şair Mirzə Ələkbər Sabirin jurnaldakı dinamik fəaliyyətindən söhbət açılır. "Molla Nəsrəddin" jurnalının poeziya qolunun aparıcı xətti M.Ə.Sabir və onun davamçılarının yaradıcılığı ilə səciyyələnir. Cəlil Məmmədquluzadənin nəsrdə etdiyi yeniliyi satirik poeziyada Sabir edə bildi. Sabir yaradıcılığının əsas həlledici mərhələsi "Molla Nəsrəddin" jurnalının nəşrinin ilk dövrlərinə təsadüf edir. Bu illərdə Sabir ədəbiyyatda yeniliyin, müasirliyin tərəfdarı olmaqla yanaşı, həm də zamanın nəbzini tutan, xalq təfəkkürünü, onun həyat və məişətini əks etdirən satiraları ilə geniş oxucu auditoriyasının rəğbətini qazandı. M.Ə.Sabir vətən mülkünü talayanları, məzlum camaatın qanını soran mülkədarları, pul düşkünü kapitalistləri, yetim malı ilə dolanan, xalqı qaranlıqda saxlamağa çalışan fırıldaqçı mollaları, soyuqqanlı ziyalıları öldürücü satirik gülüşə, sarkazma hədəf seçmişdir. Sabir yaradıcılığında klassik Şərq poeziyası ilə XX əsrin realist-satirik üslubu üzvi vəhdət təşkil edir. Böyük sənətkar ədəbiyyata gətirdiyi yeni şeir formaları – taziyanə, qırmanc, bəhri-təvil, tapmaca və s. ilə öz novatorluğunu bir daha təsdiq etdi. Şairin bu janrlı əsərlərində cəmiyyətdə hökm sürən özbaşınalıq, ədalətsizlik, fanatizm, çətin və məşəqqətli həyat tərzi, elmə, mədəniyyətə, qadın azadlığına qarşı çıxan köhnə, sxolastik baxışlar çox ciddi şəkildə tənqid hədəfinə çevrilirdi.
**Açar sözlər:** Mirzə Ələkbər Sabir, "Molla Nəsrəddin" jurnalı, satirik poeziya, taziyanə, qırmanc, bəhri-təvil, parodiya

**Məqalə tarixçəsi:** göndərilib – 08.01.2024; qəbul edilib – 18.01.2024

# Mirza Alakbar Sabir and the magazine "Molla Nasraddin"

**Gulbeniz Babayeva**
Doctor of Philosophy in Philology, Associate professor
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: gulbeniz-babayeva@mail.ru

**Abstract.** In the article is dealt with the dynamic activity in the journal of Mirza Alakbar Sabir, an outstanding representative of Azerbaijani literature of the 20th century, one of the active members of the "Molla Nasraddin" literary school. The leading line of poetry branch of the "Molla Nasraddin" magazine is characterized by the creativity of M.A.Sabir and his successors. Sabir managed to implement the innovation in satirical prose that Jalil Mammadguluzade did. The main decisive stage of Sabir's creativity coincides with the first period of publication of the magazine "Molla Nasraddin". In these years, Sabir was a supporter of innovation and modernity and gained the sympathy of a wide readership with his satires that kept up with the times, reflected people's





opinion, life and welfare. M.A.Sabir chose as a target for satirical laughter those who plundered the property of a country, landlords who harmed the oppressed community, greedy for money capitalists, mullahs who live off orphan goods and try to keep the people in the dark and cold-blooded intellectuals. In Sabir's creativity, classical Eastern poetry and the realistic-satirical style of the 20th century form a unity. The great master brought to literature the new forms of poetry – taziyane, girmanj, bahri-tevil, riddle and so on., and once again he confirmed his innovation by these new forms. In the poet's works of this genre, the arbitrariness prevailing in the society, injustice, fanaticism, difficult lifestyle, old, scholastic views against science, culture and women's liberation became a target of serious criticism.
**Keywords:** Mirza Alakbar Sabir, "Molla Nasraddin" magazine, satirical poetry, taziyane, girmanj, bahri-tevil, parody

**Article history:** received – 08.01.2024; accepted – 18.01.2024

## Giriş / *Introduction*

Mirzə Ələkbər Sabir XX əsr satirik poeziyasının zirvəsini fəth edən, "Molla Nəsrəddin" ədəbi məktəbinin yetişdirdiyi qüdrətli və təkrarsız sənətkarlardan biridir. Azərbaycan şeirini klassik ənənələrdən fərqli olaraq, yeni istiqamətə yönəldən novator şairin xoşbəxt həyat, işıqlı sabah amallı poeziyasının əbədiyaşarlığı zamanın sınaqlarından uğurla çıxaraq özünü təsdiqləmişdir. Cəlil Məmmədquluzadənin nəsrdə etdiyi yeniliyi satirik poeziyada Sabir edə bildi. Sabir yaradıcılığının əsas həlledici mərhələsi "Molla Nəsrəddin"in fəaliyyətinin ilk dövrlərinə təsadüf edir. Bu illərdə Sabir ədəbiyyatda yeniliyin, müasirliyin tərəfdarı olmaqla yanaşı, həm də zamanın nəbzini tutan, xalq təfəkkürünü, onun həyat və məişətini əks etdirən satiraları ilə geniş oxucu auditoriyasının rəğbətini qazandı.

## Əsas hissə / *Main part*

XIX əsrin sonları və XX əsrin əvvəllərində Azərbaycan ictimai-mədəni fikrinin əsasını təşkil edən maarifçi düşüncəyə yeni keyfiyyət – siyasi məzmun, milli azadlıq və mübarizlik ruhu da əlavə olunmağa başladı. M.Ə.Sabir də bu prosesin içində yeni məzmunlu və istiqlal ruhlu poeziya yolunda inamla addımlayaraq, bir-birinin ardınca nəşr edilən "Şərqi-Rus", "Həyat", "İrşad", "Tazə həyat", "Bəhlul", "Dəbistan", "Rəhbər", "Füyuzat", "Səda", "Həqiqət", "Günəş", "Yeni Füyuzat" və başqa mətbuat orqanları ilə fəal əməkdaşlıq edirdi. Lakin Mirzə Ələkbər Sabiri bir şair kimi satirik poeziyanın zirvəsində qərarlaşdıran məhz "Molla Nəsrəddin" jurnalı oldu.

Şair "Həyat" qəzetində çap etdirdiyi (10 fevral 1906) "Bir məclisdə on iki kişinin söhbəti" adlı proqram xarakterli satirasında cəmiyyətdə müxtəlif təbəqələri təmsil edən 12 tipi öz danışıq aktı vasitəsilə tənqid hədəfinə çevirir:

*Vəkil: Həqsizə həqli deyib, bir çox günaha batmışam.*
*Həkim: Dərdi təşxis etməyib, qövm-əqrəba ağlatmışam.*
*Tacir: Mən həlal ilə həramı bir-birinə qatmışam.*
*Rövzəxan: Ümmətin pulun alıb, mən gözlərin islatmışam.*
*Molla: Gündə bir fitva verib, məxluqu çox aldatmışam.* [17, s.17]

"Molla Nəsrəddin" jurnalı nəşrə başlayandan (7 aprel 1906) sonra Sabir üçün daha əlverişli və münbit şərait yarandı. Şair jurnalda və digər dövri mətbuat orqanlarında bir-birinin ardınca dərc etdirdiyi "Oxutmuram, əl çəkin!", "Nəfsin qərəzi, əqlin mərəzi", "Bakı fəhlələrinə", "Fəhlə özünü...", "Əkinçi", "Dilənçi", "Səbr eylə!", "Nə yazım?!", "Sərhesab", "Mənimki belə düşdü", "Qoyma, gəldi!", "Ürəfa marşı", "Qocalar marşı", "Xəsisin heyfi, varisin keyfi", "Tömeyi-nəhar", "Satıram!",

"Səttarxana!", "İstiqbalımız lağlağıdır", "İstiqbal bizimdir!", "Fəxriyyə", "Bura say!", "İran özümündür", "Osmanlılar, aldanmayın...", "Ağladıqca kişi qeyrətsiz olur", "Yuxu" və başqa satiralarında müxtəlif xarakterli satirik tiplər qalereyasının çoxçeşidli, real mənzərəsini oxucuların, geniş ictimaiyyətin gözü qarşısında canlandırdı. Təsvir və boyalarının tünd və kəskin təsiri ilə milləti silkələyib qəflət yuxusundan oyatdı. Sabir satirasının inqilabi, dəyişdirici gücü bütün cəmiyyəti, əsrlərdən bəri pas atmış beyinləri, buxovlanıb yatırılmış ruhları hərəkətə gətirdi. Satiralarında "Hophop", "Güləyən", "Ağlar güləyən", "Boynuburuq", "Boynuyoğun", "Qabaqda gedən zəncirli", "Çaydaçapan", "Obaşdançı", "Məczub", "Hörümçək", "İran qurdu", "Nizədar", "Yetim qızcıq" və s. bütövlükdə 40-a yaxın satirik gizli imzadan istifadə etdi. Onun yaradıcılıq üslubunu davam etdirən şairlər yetişdi və Sabir poeziya məktəbi yarandı. Böyük realist ədibimiz, "Molla Nəsrəddin" jurnalının redaktoru Cəlil Məmmədquluzadə "Xatiratım"da Mirzə Ələkbər Sabirin jurnalla əməkdaşlığa başlamasından bəhs edərək yazır: "Molla Nəsrəddin" məcmuəsi 1906-cı il aprel ayının 7-də nəşrə başlayanda biz Sabiri tanımazdıq və Sabir adlı şairin varlığını eşitməmişdik. Əgər bizim şivəmizə yaraşan belə bir ləzzətli şairin dünyada olduğunu zənn etsə idik, birinci nömrəmizi onun qələmi ilə bəzəməmiş meydana qədəm qoymazdıq" [12, s.285].

Şairin ədəbi irsi bütövlükdə xalqın azadlıq uğrunda mübarizəsini, arzu və istəklərini, məişətini əks etdirən canlı və parlaq nümunədir. O, "Bir utan", "Qurban bayramı", "Bizə nə", "Ey pul", "Mətləbi andırmaq olurmu?", "Dilənçi", "Paradır", "Hər nə verirsən, ver" və başqa satiralarında cəmiyyətin ziddiyyətli məqamlarını ustalıqla qələmə almışdır. M.Ə.Sabir vətən torpağının şirəsini, məzlum camaatın qanını soran mülkədarları, pul düşkünü kapitalistləri, yetim malı ilə dolanan, xalqı qaranlıqda saxlamağa çalışan fırıldaqçı mollaları, soyuqqanlı ziyalıları öldürücü satirik gülüşə, sarkazma hədəf seçmişdir.

"Molla Nəsrəddin"də təkcə Azərbaycanda deyil, həm də Zaqafqaziyada, Rusiyada, İranda, Türkiyədə, Hindistanda, Ərəbistanda və başqa ölkələrdə baş vermiş ictimai-siyasi hadisələri əks etdirən yazılar dərc olunurdu. Jurnal əzilən, haqqı tapdanan xalqların halına acıyır və onları müdafiəyə qalxırdı. Xüsusilə də, çar mütləqiyyətinin başında dayanan Nikolayı, insanları qan gölündə boğduran Məmmədəli şahı, Zilli-Sultanı, Əbdülhəmidi və başqalarını ifşa edən tənqidi yazılara geniş yer verirdi. M.Ə.Sabirin "İran özümündür", "Satıram", "Füzuliyə bənzətmə", "Doğrudan da, Məmdəli...", "Avropada Məmdəlinin eşqbazlığı" adlı satiralarında İran şahı ifşa obyekti kimi seçilir, onun xalqın, məmləkətin bəlasına çevrildiyi göstərilir:

*Şah bilər: ölkədə hər nə götürər, hər nə qoyar,*
*Gah cibin, gah dərisin hər kimin istərsə soyar,*
*Baş kəsər, ev dağıdar, can çıxarar, göz də oyar.*
*Min də çıxsa göyə əfqanları iranlıların,*
*Bəcəhənnəm ki, yanır canları iranlıların.* [4]

Sabirin lirik üslubda qələmə aldığı "Səttarxana" şeiri Təbriz inqilabının yenilməz qəhrəmanı Səttarxana, onun azadlıq uğrunda mübarizəsinə həsr olunmuş ən dəyərli əsərlərdəndir. Şair bu azadlıq mücahidini ürəkdən alqışlayır. Xalq arasında dillər əzbəri olan bu şeir o zaman Cənubi Azərbaycanda geniş yayılmışdı. M.Ə.Sabir Tehranda Məclisin buraxılmasından sonra Cənubi Azərbaycanda, Təbrizdə azadlıq hərəkatına başçılıq edən Səttarxanın misilsiz qəhrəmanlıqlarını, şücaətini bütün dünyaya bəyan etdi. Şair bu tarixi qələbəni həm azərbaycanlıların, həm də azərbaycançılığın qələbəsi səviyyəsinə yüksəldə bildi:

*Ta ki Millət Məcməin Tehranda viran etdilər,*
*Türklər Səttarxan ilə əhdü peyman etdilər,*
*Zülmü-istibdadə qarşı nifrət elan etdilər,*
*Millətə, milliyyətə can nəqdi qurban etdilər,*
*Ayeyi "zibhi-əzmi" itlaqı ol qurbanədir,*
*Afərinim himməti-valayı- Səttarxanədir.* [16]





Əlbəttə, çox keçmədi ki, şahlıq rejimi və xarici imperialist qüvvələrin xəyanətkarlığı ilə xalqın azadlıq idealları məhv edildi və onun başçıları isə qətlə yetirildi. Baş vermiş bu qanlı hadisələri "Molla Nəsrəddin" jurnalı öz səhifələrində yazıb geniş kütlələrə çatdırdı. Vətənpərvər şairimiz Abbas Səhhət yazırdı: "Sabirin "Səttarxana" şeiri Təbriz inqilabına bir ordudan ziyadə xidmət etmişdir" [18, s.45].

Sabir yaradıcılığının məşhur İran şairləri Ə.Dehxuda, S.Ə.Gilani, Ə. Lahuti, Q.Kamal, N.Yuşiç və başqalarının ədəbi fəaliyyətinə güclü təsiri olmuşdur. S.Ə.Gilani Sabirin "Bir məclisdə on iki kişinin söhbəti" şeirinə "On dörd nəfər kişinin bir məclisdə söhbəti" , "Sual-cavab" şeirinə isə "Şallaq" adlı nəzirəsini yazmışdır. İranda çıxan "Besuye-Ayəndə" qəzeti yazırdı: "İranda məşrutə hərəkatının ilk aylarında "Molla Nəsrəddin" məcmuəsi İranın gözüaçıq adamlarının arasında özünə mövqe qazandı. Bu məcmuə özünün cəzbedici və təlimverici karikaturaları ilə tezliklə kütlələrə nüfuz etməyi bacardı. Azərbaycanın qiymətli şairi Mirzə Ələkbər Sabir Şirvaninin şeirləri hər şeydən artıq diqqəti cəlb edirdi" [2].

Şair İran həyatından bəhs edən "İstiqbal bizimdir", "İran niyə viran oldu", "Neçin verməyir", "Satıram", "Yetim Məmdəli", "Etməzmidim", "Mir Haşım", "Belə düşdü", "İran özümündür" satiralarında vətən və millət xainlərinin xarakterini açır, mənfi tipini yaradır, el gücünə, xalqın azadlıq ideyalarına dərin sevgi və inam duyğularını tərənnüm edirdi. M.Ə.Sabir yaradıcılığının yüksək məziyyətlərindən bəhs edən Ə.Lahuti yazır: "Sabirin əsərləri o qədər sadə, rəvan, xəlqi, aqilanə və qorxmaz ruhdadır ki, azadlıq sevən hər bir insanın ürəyinə yol tapır. Bu səpkidə müstəqil əsərlər yazmaqda mənə Sabir yol göstərmişdir. Bu sahədə mən onun ustalığına minnətdaram. İranın digər satirikləri də mənim kimi. Orta Asiyanı dolaşdığım illərdə gördüm ki, o yerlərin satirik əsərləri qətiyyən Sabir təsirindən xaricdə deyildir" [10, s.72-73].

Mirzə Ələkbər Sabirin zəngin və çoxşaxəli yaradıcılığı Şərq xalqlarının, o cümlədən Orta Asiya xalqlarının da taleyində mühüm rol oynamışdır. Özbək şairi Qeyrəti yazır: "Azərbaycan ədəbiyyatı tarixində yeni bir ədəbi məktəb yaradan Sabir yaradıcılığı bizə, qonşu respublika xalqlarının ədəbi yaradıcılığına da qüvvətli təsir göstərmişdir. "Müştüm" ətrafında toplaşan şairlərdən Q.Qulam, S.Abdulla, Xurşid, Həzlkeş, Fələngi və başqa sənətkarlar Sabirin "Nam alırız biz" və başqa bir çox şeirlərinə, bəhri-təvillərinə oxşatmalar yazmışlar. Bununla belə, Sabirin alovlu satirası, atəşin şeirləri özbək ədəbiyyatının tərəqqisi və inkişafına böyük xidmət etmişdir" [15]. Özbək ədəbiyyatşünası Vahid Abdullayev "Sabir və Əczi" məqaləsində Sabir satiralarının Əczi yaradıcılığına təsirindən bəhs etmişdir.

Məşhur özbək şairi Qafur Qulam Sabir yaradıcılığından təsirləndiyini etiraf edərək yazır: "Mən yeni-yeni şeir yazmağa başladığım zamanlarda əlimə Sabirin "Hophopnamə"si düşdü. Onu bir neçə dəfə oxudum. Bu əsər mənə böyük təsir bağışladı. Bundan sonra mən də Sabir kimi gizli imzalarla satirik şeirlər yazmağa başladım" [9].

"Molla Nəsrəddin" jurnalının poeziya qolunun aparıcı xətti M.Ə.Sabir yaradıcılığı ilə səciyyələnir. Sabir dövrün bir çox ziyalıları kimi geriliyin, cəhalətin aradan qaldırılmasında maarif və mədəniyyətin müstəsna rolunu dəyərləndirir, yeni tipli məktəblərin açılmasına və uşaqların tədris ocaqlarına cəlb olunmasına böyük əhəmiyyət verirdi. Akademik İsa Həbibbəyli yazır: "M.Ə.Sabir yaradıcılığında məktəb, maarifçi ziyalı, məktəbə gedən uşaq, elmə, təhsilə köhnəpərəst münasibətin tənqidi mühüm yer tutur. Şərti olaraq bu tip şeirləri maarifçi satirik şeirlər adlandırmaq olar. "Bilməm nə görübdür bizim oğlan oxumaqdan", "Neçin məktəbə rəğbətim olmayır", "Uşaqdır", "Uçitellər", "Müəllimlər syezdi", "Oxutmuram əl çəkin", "Ürəfa marşı" və sair kimi satiralarında elmsizliyin, savadsızlığın bəlaları, məktəbin və təhsilin düşmənlərinin ifşası, yalnız elm öyrənməklə, təhsil almaqla özünüdərkin isbatı kimi öz dövrü üçün çox aktual olan məsələlərdən söz açılmışdır" [6, s.215].

Mollanəsrəddinçilər qadın azadlığı problemini də ön plana çəkmiş və jurnalın səhifələrində Azərbaycan qızlarının, qadınlarının kölə halına salınmasına, təhsildən, elmdən uzaqlaşdırılmasına, hüquqlarının tapdanmasına, ana adına hörmət edilməməsinə aid çoxlu yazılar dərc etdirmişlər. Qadın azadlığı problemi aktual bir məsələ kimi C.Məmmədquluzadə, Ə.Haqverdiyev və başqa molla-

nəsrəddinçilərin nəsr yaradıcılığında, Sabir, Əli Nəzmi, Əli Razi kimi satiriklərimizin poeziyasında həmişə diqqət mərkəzində olmuşdur. M.Ə.Sabirin "Nədamət və şikayət", "Qoyma gəldi", "Uşaq", "Küpəgirən qarının qızlara nəsihəti", "Məsləhət" və başqa satiralarında haqqı, hüququ tapdanan, əsarətdə qalan qadınlarımızın acınacaqlı taleyindən ürək ağrısı ilə söhbət açılır. XX əsr Azərbaycan ədəbiyyatında qadın azadlığı mövzusunun köklü şəkildə qoyuluşu və hərtərəfli ədəbi-bədii həlli məsələsini nəsr və dramaturgiyada C.Məmmədquluzadə, satirik poeziyada isə M.Ə.Sabir qədər geniş işıqlandıran sənətkar tapmaq çətindir.

Sabir satiralarında fərdiləşdirmə ilə yanaşı, güclü ümumiləşdirmə xüsusiyyəti də vardır. Şairin "Dindirir əsr bizi, dinməyiriz", "Adətimiz daş idi dəva günü", "Amalımız, əfkarımız ifnayi-vətəndir", "Övladımız, əzkarımız əfsaneyi-zənndir", "Ta gəlirik biz də bir az anlayaq", "Sanma əzdikcə fələk bizləri viranlıq olur", "Yaşamaq istər isək, sırf əvam olmalıyız", "Kim nə deyər bizdə olan qeyrətə", "İntelligentik, gəzirik naz ilə..." misraları ilə başlayan satiraları orijinal sənət nümunələridir. Bu satiralarda forma, təsvir və ifadə vasitələri, satirik manera ayrı olsa da, məqsəd, məzmun və sənətkar idealı birdir.

Sabir yaradıcılığında klassik Şərq poeziyası ilə XX əsrin realist-satirik üslubu üzvi vəhdət təşkil edir. Böyük sənətkar ədəbiyyata gətirdiyi yeni şeir formaları – taziyanə, qırmanc, bəhri-təvil, tapmaca və s. ilə öz novatorluğunu bir daha təsdiq etdi. Şairin bu janrlı əsərlərində cəmiyyətdə hökm sürən özbaşınalıq, ədalətsizlik, fanatizm, çətin və məşəqqətli həyat tərzi, elmə, mədəniyyətə, qadın azadlığına qarşı çıxan köhnə, sxolastik baxışlar çox ciddi şəkildə tənqid hədəfinə çevrilirdi.

Şair bütün varlığı ilə vətəninə, xalqına sevgi ilə yoğrulmuşdu. Baxmayaraq ki, Sabirin kəskin, öldürücü satiralarının əsas prototipləri öz həmvətənləri idi:

*Kim nə deyər bizdə olan qeyrətə?!*
*Qeyrətimiz bəlli bütün millətə...*
*Biz qoca qafqazlı igid ərlərik,*
*Cümlə hünərməndlərik, nərlərik,*
*İş görəcək yerdə söz əzbərlərik*
*Aşiqik ancaq quru, boş söhbətə,*
*Kim nə deyər bizdə olan qeyrətə?!* [1]

Satiradakı bu qədər ittihamların, tənqidlərin arxasında şairin böyük vətən sevgisi, xalqına təmənnasız məhəbbəti dayanırdı. Şair tənqid hədəfi seçdiyi "qəhrəmanlar"ı islah etmək, onların eybini, qüsurunu göstərmək yolu ilə əslində həmin çatışmazlıqların aradan qaldırılmasını istəyirdi. "Şairəm, əsrimin ayinəsiyəm" deyən sənətkar mövcud quruluşun və cəmiyyətin yaratmış olduğu bütün əyintilərə, qanun pozuntularına qarşı çıxırdı:

*Şairəm, çünki vəzifəm budur aşar yazım,*
*Gördüyüm nikü bədi eyləyim izhar, yazım,*
*Günü parlaq, günüzü ağ, gecəni tar yazım,*
*Pisi pis, əyrini əyri, düzü həmvar yazım.*
*Niyə bəs böylə bərəldirsən, a qare gözünü.*

Yoxsa bu ayinədə əyri görürsən özünü? [3] "Realizm, həqiqətpərəstlik Sabirin nəzərində yaradıcılığın başlıca şərtidir. Çünki şair ədəbiyyatı ictimai varlığın "ayinəsi" hesab edir. Həm də elə bir ayna ki, oraya baxanlardan bir qisminin öz əksini əyri görüb, gözünü bərəltməsindən asılı olmayaraq, o ayna yaxşını-yaxşı, pisi-pis, əyrini-əyri göstərsin" [11, s.101].

Sabir yaradıcılığında dini mövhumatla, cəhalətlə, nadanlıqla elm, maarif məsələləri qaranlıqla işıq, zülmətlə nur kimi qarşılaşdırılır. Professor Abbas Zamanov Sabir yaradıcılığının bu mühüm istiqamətinə nəzər salaraq yazır: "Otuz illik bir axtarışdan sonra o belə bir qənaətə gəlmişdi ki, cəhalət aləminin kütləşdirdiyi şüurları oyatmaq, hərəkətə gətirmək üçün moizə və nəsihət artıq kara gəlmir, şirin qəflət yuxusuna dolanları oyatmaq üçün onlara gülmək, onları güldürmək lazımdır ki, diksinib oyansınlar, gözlərini açıb gərnəşdikdə bərk sancmaq lazımdır ki, bir daha yuxuya getməsinlər" [20, s.15].





Şair kütləvi savadsızlığın hökm sürdüyü bir zəmanədə avam xalqın beynini dini xurafatla doldurub məktəbdən, təhsildən, oxumaqdan yayındırıb cəhalətə sürükləyən mollaları, ruhaniləri kəskin tənqid atəşinə tuturdu. Əlbəttə ki, Sabir əslində dinin mənəvi dəyərlərinə, kamilliyinə, elmə söykənərək xalqa fayda verə biləcəyinə şübhə ilə yanaşmırdı. Lakin XX əsrin əvvəllərində dindən bir alət kimi istifadə etməyə çalışan yalançı mollalar, zahidlər xalqın qəflət yuxusundan oyanmasına mane olur və əsl həqiqəti xurafat pərdəsi altında gizlətməyə çalışırdılar. Şair öz kəsərli qələmi ilə belə tipləri tənqid hədəfinə çevirir və oxucuları onların fitvalarına uymamağa səsləyirdi. O dövrün ədəbiyyatında dinlə elm elə şəkildə qarşılaşdırılırdı ki, sanki bunlar bir-birilə barışmaz qüvvələrdir, ikisi bir araya sığa bilməz. Bütün bunlara bais yalançı, fırıldaqçı, cahil mollalar idi.

M.Ə.Sabirin məşhur "Elm təhsili", "Ay başı bəlalı", "Oğlum", "Bəxtimiz oğlan imiş", "Oxutmuram, əl çəkin", "Nə dərs olaydı...", "Utanmırsan, utanma" və s. bəhri-təvillərində insanları mənən şikəst edənlər, cahilliyi, nadanlığı, xurafatı yayanlar, elmə, maarifə qənim kəsilənlər xalqın düşməni kimi təqdim olunur. Dini fanatizmə uyanların bütövlükdə cəmiyyətdə faydasız, gərəksiz bir varlığa çevrildikləri bəzən tipin öz dili ilə, bəzən də müəllif təhkiyəsi vasitəsi ilə tənqid obyektinə çevrilir:

*Oğul mənimdir əgər, oxutmuram, əl çəkin!*
*Eyləməyin dəngəsər, oxutmuram, əl çəkin.* [5]

Satirada fikir birinci şəxsin dilindən söylənilir, yəni fərdiləşdirilir, bununla belə, burada bir ümumiləşdirmə gücü də vardır. Sabir satiralarında ümumiləşdirmələrə geniş yer verilir ki, bunlar mahiyyət etibarı ilə həm ayrı-ayrı fərdlərə, həm də bütövlükdə geniş xalq kütlələrinə ünvanlanır.

Şairin "Uçitellər", "Baş tutdu...", "Bu boyda! Bu boyda!", "Vah! Bu imiş...", "Təşəkkür", "Neçin məktəbə rəğbətim olmayır" və başqa satirik şeirlərində keçən əsrin elm, maarif məsələlərinin tipik xüsusiyyətləri sənətkarlıqla göstərilir. "Vah! Bu imiş dərsi-üsuli-cədid?!" satirasında savadsız, cahil atanın övladını yeni tipli məktəbdən çəkindirməsi, uşaqların beynini boş, cəfəng fikirlərlə doldurub mövhumatı təbliğ edən mollaların elm öyrədən müəllimdən üstün tutulması kimi ikrah doğuran həyati faktlar kinayəli, acı gülüşlə müşayiət olunur:

*Vah! Bu imiş dərsi-üsuli-cədid?!*
*Yox...x! Yo...x! Oğul, məktəbi-üsyandı bu!*
*Molla deyil bundakı təlim edən!*
*Əlhəzər et, bir yeni şeytandı bu!*
*Dur qaçaq, oğlum, baş-ayaq qandı bu!..* [17, s.182]

M.Ə.Sabirin qəzəl şəkilli, satirik ruhlu şeirləri bütövlükdə "Molla Nəsrəddin" jurnalının məramnaməsinə ekvivalent olan poetik nümunələr kimi diqqəti cəlb edir. XX əsr satirik ədəbiyyatına yeni formalar gətirən Sabir klassik poeziyanın forma özəlliklərindən, çoxçalarlığından istifadə etsə də, təkrarçılığa uymamış, özünəməxsus üslubu, bənzərsiz tərzi, fərdi manerası ilə "Molla Nəsrəddin" ədəbi məktəbinin zirvəsinə yüksəlmişdir. Şairin yaradıcılığında klassik ənənələrdən fərqli olaraq, ictimai-siyasi və s. mövzuların ön plana keçməsi cəmiyyətdə baş verən köklü dəyişikliklərin aktuallıq kəsb etməsi ilə səciyyələnir. O, dövrün nəbzini tutan şair kimi yaşadığı mühitdəki neqativ halları, kölgəli məqamları gündəmə gətirməklə xalqın halına acıyır və insanları fəal mübarizəyə səsləyir. Sabirin klassik Şərq şairləri Xaqaniyə, Füzuliyə, S.Ə.Şirvaniyə, Raciyə, Namiq Kamala, Mahmud Əkrəmə, Abdulla Cövdətə, Firdovsiyə, Hafizə, Sədiyə yazdığı çoxsaylı nəzirələr şairin dərin, zəngin mütaliəsini göstərir və onun geniş poetik imkanlara malik novator bir sənətkar olduğunu aşkarlayır. Bu keyfiyyətlər şairin "Molla Nəsrəddin" jurnalında yer alan satiralarında daha qabarıq şəkildə özünü göstərir.

Sabirin jurnalda dərc etdirdiyi, qəzəllərə parodiya şəklində yazdığı satiralarının əsas səciyyəvi xüsusiyyətlərindən biri onların əlavə detallar hesabına struktur dəyişmələrinə məruz qalmasında və forma özəlliklərinə malik olmasındadır. Belə şeirlərdə qəzəlin ümumi məzmununa uyğunlaşdırılan yarımmisraların əlavə edilməsi əsərə canlılıq, oynaqlıq, dinamiklik gətirməklə yanaşı, həm də forma və strukturuna orijinallıq, yeni üslubi çalar verərək poetik gücünü daha da artırır. Sabirin Füzulinin "Leyli və Məcnun" poemasından götürdüyü məşhur:

*Can verme qəmu eşqə ki eşq afəti-candır,*
*Eşq afəti can olduğu məşhuri cahandır*

– beyti ilə başlanan qəzəlinə parodiya şəklində yazdığı "Təhsili-ülum..." satirası bu cəhətdən diqqəti cəlb edir:

*Təhsili-ülum etmə ki, elm afəti-candır,*
*Həm əqlə ziyandır;*
*Elm afəti-can olduğu məşhuri-cahandır,*
*Mərufi-zamandır...* [17, s.60]

Sabir satirik bənzətmədə-təhzildə Füzuli qəzəlinə məxsus vəzn və qafiyə sistemini qoruyub saxlasa da, klassik ədəbiyyatda geniş işlədilən formanı bir misralı müstəzad şəklinə salmış, savadsızlığa, cahilliyə, bütövlükdə elmsizliyə qarşı üsyan etmişdir. Satirada elmə, maarifə qənim kəsilən cahil obrazı şairin mənfi obrazlar qalereyasında özünəməxsus yer tutan personajlardan biri kimi tənqid hədəfinə çevrilir. Şeirdə tipin xarakterik cizgilərinin açılmasında onun formaca yeni məzmunda təqdimatının da rolu təsirsiz qalmır. Beləliklə, şair tənqid hədəfi seçdiyi obrazı məzmun və formanın vəhdəti fonunda oxucuya tanıtdıra bilir və satirik tip onların nifrətinə tuş gəlir.

M.Ə.Sabirin M.Füzulinin:

Ah eylədiyim sərvi-xuramanın üçündür – mətləli qəzəlinə parodiya etdiyi "Ah eylədiyim nəşeyi-qəlyanın üçündür" satirasında da eyni forma gözlənilmişdir:

*Ah eylədiyim nəşeyi-qəlyanın üçündür,*
*Qan ağladığım qəhveyi-fincanın üçündür.* [7]

Satirada Füzuli qəzəlində olduğu kimi əsas prinsip saxlanılmış, şeirdə mətlə və məqtə beytləri də yer almışdır. Bununla belə, şeirin sonunda yenə də ümumi məzmunla bağlı olan yarımmisraların əlavə edilməsi şairin qəzələ yaradıcı münasibətini üzə çıxarır, yeni forma və məzmunu özündə ehtiva edir. Şeirin forma-struktur orijinallığındakı novatorluq, eyni zamanda, satiranın məzmununda da qabarıq şəkildə nəzərə çarpır. Füzulinin dərdli aşiq obrazının yerini Sabirin ömrünü eyş-işrətdə, əyləncələrdə keçirən, həyatın mənasını yeyib-içməkdə görən tüfeyli və meşşan təbiətli satirik tip – molla obrazı tutur. Şeirin sonuna əlavə edilmiş yarımmisralar və təkrirlər (leksik anaforalar) onun təsir gücünü, emosionallığını artırır, satiranın dilinə məxsus olan melodik ritm yaradır.

Sabir Füzuli poeziyasından elə nümunələri seçir ki, onlar parodiyalar üçün əlverişli zəmin yaradır, şairin tənqid obyektinə çevirəcəyi obrazların ictimai mənşəyinə, dünyagörüşünə, xarakterinə və psixologiyasına uyğun gəlir. Məhz bu baxımdan şairin yuxarıda bəhs etdiyimiz satirasında da bu prinsip gözlənilmişdir. Mollanəsrəddinçilər bütün yaradıcılığı boyu dini xurafatı yayan, xalqı elmdən, mədəniyyətdən uzaqlaşdıran mollaları tənqid hədəfi seçmiş, onları tərəqqiyə, inkişafa mane olan qara qüvvələr kimi satira atəşinə tutmuşlar. Sabir bu satirasında da məhz ikiüzlü, riyakar, yaltaq molla obrazının xarakterik portretini sözlə rəsm etmişdir. "Ah eylədiyim nəşeyi-qəlyanın üçündür" deyən din mübəlliğinin bir parça çörək üçün dövlətlilər qarşısında əyilməyini, məsləkini, əqidəsini satmağa hazır olduğunu kəskin satirik dillə, acı bir istehza ilə açıb göstərmişdir.

Füzulinin "Könlüm açılır zülfi-pərişanını görgəc" misrası ilə başlanan aşiqanə – lirik qəzəlindən də Sabir satira yaradıcılığında qəlib kimi istifadə etmişdir. Qəzəldə aşiqin incə, zərif duyğu və hisslərini, məşuqənin ecazkar gözəlliyini vəsf edən ifadələr mühüm yer tutursa, satirada kobud, eybəcər, qeyri-insani keyfiyyətlərin daşıyıcısı olan mənfi tipin danışıq aktı diqqət mərkəzində saxlanılır. Bu cür orijinallıq, novatorluq ilk dəfə Sabir tərəfindən yaradılmışdır. Qəzəlin satiraya belə bir tərzdə, bu üsulda transfer edilməsi Sabirin adı ilə bağlıdır. Şair "Bakı pəhləvanlarına" adlı satirasını həmin qəzələ nəzirə şəklində qələmə almış, Ezop əməliyyatını uğurla həyata keçirərək dövrün "könül bulandırıcı" mənzərələrini, mənfi personajın sərgərdan, tüfeyli həyat tərzini tünd boyalarla təsvir etməklə oxucuda real situasiya haqqında aydın təsəvvür yaratmışdır:

*Könlüm bulanır küçədə cövlanını görcək,*
*Nitqim tutulur hərzəvü hədyanını görcək.*
*Canım üzülür əldəki qalxanına baxcaq,*
*Qəlbim alışır beldəki patranını görcək.* [8]

Sabir Füzulinin ustad qələmilə yaradılmış lirik mahiyyətli qəzələ ictimai məna yükləmiş, cahil, elmsiz və nadan insanların kobudluğunu tənqid edərək mühitin real lövhələrini satirik tərzdə ifşa obyektinə çevirmişdir.

Bu baxımdan Sabirin yaradıcılığında "Molla Nəsrəddin"in əsas leytmotivini təşkil edən ictimai-siyasi mövzulu satiralar xüsusi yer tutur. Şair Rusiyada, Yaxın Şərqdə baş verən inqilabi hadisələri, ictimai-siyasi prosesləri izləyir, təhlil süzgəcindən keçirərək satiralarının baş mövzusuna çevirir. Sabir azadlıq hərəkatını boğmağa çalışan, demokratiyaya qənim kəsilən düşmən qüvvələri tənqid atəşinə tutaraq onların bəşəriyyətə vurduğu ağır mənəvi zərbələri ictimailəşdirir. Şair bu vətəndaşlıq missiyasını həyata keçirərkən yenə də Füzuli sənətinə üz tutur, şairin qəzəllərinin sehrkar gücü Sabir satiralarının reallaşmasına güclü təkan verir və parodiyalar üçün əlverişli, münbit zəmin hazırlayır. Şairin 1909-cu ildə İran məmləkətində taxt-tacdan salınıb ölkədən qovulan Məhəmmədəli şahı ifşa edən "Füzuliyə bənzətmə" satirasında əsas mənbə yenə dahi sənətkarın qəzəl yaradıcılığıdır. Füzulinin "Əql yar olsaydı" mətləli qəzəlinə istinad edən Sabir onun satiraları üçün xarakterik olan tipin öz dili ilə özünü ifşa üsulundan istifadə etməklə Məhəmmədəli şahı tənqid hədəfinə çevirmişdir:

*Məndə ar olsaydı, ölmək ixtiyar etməzmidim?*
*Abrunun nolduğun bilsəydim, ar etməzmidim?*
*Xaki-İranın mənə bir guşəsin versəydilər,*
*Kəndimi Əbdülhəmid tək bəxtiyar etməzmidim.* [19]

Ədalətsiz və zülmkar hökmdarın xalqın qəzəbinə düçar olaraq ölkədən qovulması, Rusiyaya sığınması, şahın düşdüyü acınacaqlı durumu, mühacirlik həyatının real səhnələrini canlandırmaq məqsədilə Sabir Füzuli qəzəlindən bir fon kimi yararlanmış və Ezop əməliyyatının müvəffəqiyyətli icraçısına çevrilmişdir. Satiranın uğurlu forma strukturu, bədii sualların təsir gücü, ictimai-siyasi məzmun və ideya yeniliyi onu "Molla Nəsrəddin" jurnalında yer alan karikaturalar üçün də əlverişli və effektli etmişdir. Jurnalda dərc olunmuş karikaturada [13, s.11] Məhəmmədəli şah rus kəndlisinin sürdüyü ikiçarxlı arabada əyləşərək iri bir bağlamanı ikiəlli bağrına basmış, şəklin altında isə satiranın bir beyti verilmişdir:

*Mülki-İranın düşünseydim əlimdən getməyin,*
*Var ikən fürsət o mülkü tarümar etməzmidim?*

Satirada Füzuli qəzəlinin son dərəcə ağır, ləngərli və ecazkar forması Sabirin kəskin öldürücü kinayə və istehzasının qüdrətilə cilalanaraq dövrün ictimai eybəcərliklərini bütün parametrləri ilə göstərən qüvvətli bir sarkazm yaratmışdır.

**Nəticə / *Conclusion***

Mirzə Ələkbər Sabirin yaradıcılığı həm Azərbaycan, həm də Şərq və Qərb alimlərinin diqqətini cəlb etmişdir. Böyük türk araşdırıcıları Nazim Hikmət, Hilmi Ucabaş, Fuad Köprülü, İbrahim Altay Qövsi, Hüseyn Kazım Qədiri, Səlim Rəfiq Rəfioğlu, Əziz Nesin, Əbdülvahab Yurtsevər və başqaları şairin yaradıcılığını müxtəlif aspektdən təhlilə cəlb etmişlər. Bununla yanaşı, Türkiyədə nəşr edilən "İnönü ensiklopediyası" (1950), "İslam ensiklopediyası" (1950), "Türk ensiklopediyası" (1953), Parisdə çıxan "Müsəlman xəbərləri" (1922), Londonda çap olunan "Mərkəzi Asiya" (1960) icmalında və başqa toplu və fundamental ensiklopediyalarda Sabir yaradıcılığının mövzu və janr rəngarəngliyindən, dil, üslub və sənətkarlıq məharətindən geniş söhbət açılmış, şairin yaradıcılığının xəlqiliyi və bəşəriliyi diqqət mərkəzində saxlanılmışdır.

Cəlil Məmmədquluzadə ilə Sabiri sıx dostluq telləri, əqidə və məslək birliyi bir-birinə bağlayırdı. Sabir xəstəlikdən əziyyət çəkərkən Mirzə Cəlil onun müalicəsinə köməklik göstərir, hətta xəstəxanada qalmasına razı olmayıb, öz evində yerləşdirərək hər vəchlə şairin sağalmasına çalışır. Özü Qarabağda olarkən jurnalın müvəqqəti redaktoru Məmmədəli Sidqiyə yazdığı məktubda Sabirin səhhətindən hədsiz nigarançılığını bildirir, peşəkar həkimləri bu işə cəlb etməyin zəruriliyini söyləyir. Bunlar Cəlil Məmmədquluzadənin böyük satirik şairə verdiyi yüksək dəyəri isbat edən faktlar kimi diqqətəlayiqdir. Lakin bu qayğıya baxmayaraq, satirik poeziyamızın günəşi – Mirzə Ələkbər Sabir 1911-ci il, iyul ayının 12-də gözlərini əbədi olaraq yumdu. "Molla Nəsrəddin" həmin ilin 20 iyul tarixli 26-cı sayında dərin hüzn və kədərlə məlumat verərək yazırdı: "Möhtərəm oxuculara məlum olsun ki, bu iyul ayının on ikinci günündə Şamaxı şəhərində, əziz olan "Sabir" təxəllüslü şairimiz Məşədi Ələkbər Tahirzadə cənabları vəfat edib əlimizdən getdi. "Hop-hop", "Əbunəsr Şeybani" və bundan savayı qeyri imzalar və imzasız ləzzətli şeirləri məcmuəmizdə oxumağa adət edən oxucularımız bilirlər ki, bir belə vücudun yox olmağı maarif dostları üçün nə böyük dərddir. Lakin istəkli yoldaşımızın əqrəbasına başsağlığı veririk və biz də bununla təsəlli tapırıq ki, ölümün qabağında sultan da acizdir". Jurnalın həmin sayında Mirzə Ələkbər Sabirin rəssam Rotter tərəfindən çəkilmiş rəsmi də verilmiş və şəklin altında yazılmışdır: "İyul ayının 12-də vəfat etmiş şairimiz Sabir".

M.Ə.Sabiri yetişdirən XX əsrin kəskin ictimai-siyasi hadisələri və "Molla Nəsrəddin" jurnalının orijinal, realist-satirik üslubu oldu. Şairin yaxın dostu və həmkarı Əli Nəzmi "Keçmiş günlər" adlı xatirəsində Sabir yaradıcılığını belə xarakterizə etmişdir: "Mübaliğə olmasın, deyə bilərəm ki, əgər "Molla Nəsrəddin" məcmuəsi olmasaydı, əziz şairimiz Sabir də bu qədər məşhur ola bilməzdi. Mən isə ya heç şair ola bilməzdim, ya şair olsam da, bir növhə və mərsiyə şairi olmaqdan irəli gedə bilməzdim. "Molla Nəsrəddin"in bizim boynumuzda çox böyük haqqı vardır" [14, s.45]. Sabir dərin müşahidə qabiliyyəti, iti ağlı, zehni, hadisələrə obyektiv yanaşma tərzi, özünəməxsus forma və deyim üslubu ilə həmməsləklərinin önündə gedirdi. Biz çəkinmədən deyə bilərik ki, Sabir "Molla Nəsrəddin" jurnalı ilə əməkdaşlığa başlayandan sonra Mirzə Cəlil və Ömər Faiqlə birlikdə "Molla Nəsrəddin" ədəbi hərəkatının əsas yaradıcılarından, jurnalın aparıcı qüvvələrindən birinə çevrildi və yeni ədəbi məktəbin binasını qoydu.

**Ədəbiyyat / *References***


1. Ağlar Güləyən. "Kim nə deyər bizdə olan qeyrətə?!". "Molla Nəsrəddin" jurnalı, – 1910, №2.
2. "Besuye-Ayəndə" qəzeti, hicri 1331, 14 murdad.
3. Əbunəsr Şeybani. "Nə yazım" şeiri. "Molla Nəsrəddin" jurnalı, – 1908, №41.
4. Əbunəsr Şeybani. "Nədir, aya, yenə üsyanları iranlıların?". "Molla Nəsrəddin" jurnalı, – 1909, №29.
5. Əbunəsr Şeybani. "Oxutmuram əl çəkin". "Molla Nəsrəddin" jurnalı, – 1910, №15.
6. Həbibbəyli, İ. Ədəbi şəxsiyyət və zaman. Əsərləri 10 cilddə, II cild. – Bakı: Elm və təhsil, – 2017.
7. Hop-hop. Ah eylədiyim... "Molla Nəsrəddin" jurnalı, – 1906, №22.







8. Hop-hop. Bakı pəhlivanlarına. "Molla Nəsrəddin" jurnalı, – 1906, №28.
9. "Kommunist" qəzeti, – 29 may 1962-ci il, №123.
10. Mirəhmədov, Ə. Molla Nəsrəddin jurnalının yayılması və təsiri. Azərbaycan SSR EA Xəbərləri (ictimai elmlər seriyası ), – 1958, №1.
11. Mirəhmədov, Ə. Sabir. – Bakı, – 1958.
12. Məmmədquluzadə, C. Əsərləri. 4 cilddə, IV cild. Memuarlar, məqalələr, məktublar. – Bakı: Öndər, – 2004.
13. "Molla Nəsrəddin", – 1909, №37.
14. Nəzmi, Ə. Xatirələrimdən. "Ədəbiyyat qəzeti", – 16 noyabr 1936.
15. Qeyrəti. Onun təsiri ilə. "Ədəbiyyat və incəsənət" qəzeti, – 12 may 1962-ci il.
16. Sabir, M.Ə. Səttarxana. "Molla Nəsrəddin" jurnalı, – 1908, №42.
17. Sabir, M.Ə. Hophopnamə. – Bakı: Təhsil, – 2012.
18. Səhhət, A. Müasirləri Sabir haqqında. – Bakı: Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı, – 1962.
19. Yetim Mədəli. Füzuliyə bənzətmə. "Molla Nəsrəddin" jurnalı, – 1909, №37.
20. Zamanov, A. Sabir bu gün. – Bakı: Gənclik, – 1985.


## Мирза Алекпер Сабир и журнал «Молла Насреддин»

**Гюльбениз Бабаева**
Доктор философии по филологии, доцент
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: gulbeniz-babayeva@mail.ru

**Резюме.** В статье рассматривается динамичная деятельность в журнале Мирзы Алекпера Сабира, выдающегося представителя азербайджанской литературы XX века, одного из активных членов литературной школы «Молла Насреддин». Ведущее направление поэтического отделения журнала «Молла Насреддин» характеризуется творчеством М.А.Сабира и его последователей. Сабиру удалось реализовать то новаторство в сатирической прозе, которое сделал Джалил Мамедгулузаде. Главный решающий этап творчества Сабира совпадает с первым периодом издания журнала «Молла Насреддин». В эти годы Сабир был сторонником новаторства и современности и завоевал симпатии широкой читательской аудитории своими сатирами, идущими в ногу со временем, отражавшими мнение народа, жизнь и благосостояние. Мишенью для сатирического смеха М.А. Сабир выбрал тех, кто разграбил собственность страны, помещиков, причинивших вред угнетенному обществу, жаждущих денег капиталистов, мулл, живущих за счет сиротского товара и пытающихся держать народ в неведении, и хладнокровных интеллигентов. В творчестве Сабира классическая восточная поэзия и реалистически-сатирический стиль XX века образуют единство. Великий мастер привнес в литературу новые формы поэзии – тазияне, гирмандж, бахри-тевил, пародия и т. д., и еще раз подтвердил этими новыми формами свое новаторство. В произведениях поэта этого жанра объектом серьезной критики стали царящий в обществе произвол, несправедливость, фанатизм, трудный образ жизни, старые, схоластические взгляды против науки, культуры и освобождения женщин.

**Ключевые слова:** Мирза Алекпер Сабир, журнал «Молла Насреддин», сатирическая поэзия, тазияне, гирмандж, бахри-тевил, пародия